

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 207 (21.359)

23 oktyabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymət 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovu qəbul edib.

Dövlətimizin başçısı Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun ölkəmizə səfərinin ənənəvi qardaşlıq əlaqələrinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğulayıb. Ölkəmizlə Rusiya Federasiyası Dağıstan Respublikası arasında əlaqələrin region üçün, bütövlükdə, Azərbaycan-Rusiya münasibətlərinin inkişafı baxımından çox əhəmiyyətli olduğunu qeyd edən Prezident İlham Əliyev bildirib ki, dövlətlərarası ikitərəfli münasibətlər möhkəmləndikcə, Azərbaycan-Dağıstan ənənəvi əlaqələri daha da güclənir.

Azərbaycanla Rusiya Federasiyasının Dağıstan Respublikası arasında əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını vurğulayan Ramazan Abdulatipov bu əlaqələrin inkişafında Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında mövcud olan səmimi münasibətlərin əhəmiyyətini qeyd edib.

Dərbənd şəhərinin iki minillik yubileyinə toxunan Ramazan Abdulatipov xalqlarımızın əsrlər boyu bir yerdə yaşadığını vurğulayaraq birgə tariximizin böyük əhəmiyyət daşıdığını deyib. Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Azərbaycan Prezidentinin göstərişi ilə Dərbənd şəhərində yüksək keyfiyyətlə həyata keçirilən abadlıq və quruculuq işlərinin də böyük razılıqla qarşılandığını bildirib.



## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq məhkəmə ekspertizası sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının əsasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi yaradılsın.

2. “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 5 oktyabr tarixli 86-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin strukturu”nun 3-cü hissəsində “Penitensiar Xidmət (idarə səlahiyyətli)” sözlərindən sonra “Məhkəmə Ekspertizası Mərkəzi (idarə səlahiyyətli)” sözləri əlavə edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 oktyabr 2015-ci il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi haqqında ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi (bundan sonra - Mərkəz) Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) idarə səlahiyyətli qurumudur.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, “Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”ni, digər normativ hüquqi aktları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Mərkəz fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlarla və digər dövlət orqanları ilə əlaqəli həyata keçirir.

1.4. Mərkəzin fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertlərin müstəqilliyi, elm və texnikanın müasir nailiyyətlərindən istifadə edilməklə həyata keçirilən tədqiqatların obyektivliyi, hərtərəfliliyi və tamlığı prinsiplərinə əsaslanır.

1.5. Mərkəz sərəncamında olan dövlət əmlakına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, digər möhürlərə, müvafiq ştamplara və blanka malikdir.

1.6. Mərkəzin saxlanılma xərcləri və fəaliyyəti dövlət büdcəsində Nazirlik üçün ayrılmış vəsaitlər və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Mərkəz Naxçıvan şəhərində yerləşir.

### II. Mərkəzin fəaliyyət istiqamətləri

2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. məhkəmə ekspertizalarını keçirir və tədqiqatlar aparır;

2.2.2. ekspert tədqiqatının yeni metod və metodikalarını hazırlayır və təkmilləşdirir;

2.2.3. məhkəmə və hüquq mühafizə orqanlarına metodik kömək göstərir;

2.2.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### III. Mərkəzin vəzifələri

3.1. Mərkəz bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. məhkəmə ekspertizalarını keçirmək və rəylər vermək;

3.1.2. qanunvericiliyə uyğun olaraq tədqiqatlar aparmaq və arayışlar vermək;

3.1.3. məhkəmə ekspertizası, kriminalistika, kriminologiya və hüququn digər aidiyyəti sahələrində tədqiqat işlərini aparmaq;

3.1.4. məhkəmə ekspertizalarının təyini, aparılması və ekspert rəylərinin qiymətləndirilməsi ilə bağlı məhkəmə və hüquq mühafizə orqanlarına metodik kömək göstərmək, metodiki vəsaitlər hazırlamaq;

3.1.5. cinayətlərin səbəblərinin, baş verməsinə kömək etmiş şəraitin aşkar olunması və onların qarşısının alınması sahəsində kriminoloji tədqiqatlar aparmaq;

3.1.6. hüquqi maarifləndirmə işinin aparılmasında iştirak etmək;

3.1.7. məhkəmə ekspertizası sahəsində beynəlxalq təcrübəni öyrənmək, onun tətbiqi ilə bağlı müvafiq təkliflər vermək;

3.1.8. məhkəmə ekspertizası ilə bağlı texniki təhlükəsizlik tədbirlərini həyata keçirmək;

3.1.9. məhkəmə eksperti kadrlarını hazırlamaq, ekspertlərin peşə və hüquqi hazırlığının artırılmasını təşkil etmək, onları müvafiq kurs və treninqlərə cəlb etmək;

3.1.10. məhkəmə ekspertizasının aparılması ilə bağlı məlumatların, o cümlədən dövlət sirrinin qorunması üçün zəruri tədbirlər görmək;

3.1.11. məhkəmə ekspertizası sahəsində arxiv işini təşkil etmək, arxiv sənədlərinin müəyyən olunmuş qaydada saxlanılması və mühafizəsini təmin etmək;

3.1.12. yeni informasiya və kommunikasiya texnologiyalarını tətbiq etmək;

3.1.13. məhkəmə ekspertizası sahəsində kadr hazırlığını təmin etmək məqsədilə müvafiq ixtisaslaşdırma aparmaq, məhkəmə eksperti kadrlarının və mütəxəssislərin peşə hazırlığını mütəmadi yoxlamaq və zəruri tədbirlər görmək;

3.1.14. işçilərin əmək funksiyalarını icra etmələrinə nəzarəti həyata keçirmək;

3.1.15. vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılmasını və onların qəbulunu təmin etmək;

3.1.16. işçilərin sosial müdafiəsi üzrə tədbirlər görmək;

3.1.17. məhkəmə ekspertizası fəaliyyəti ilə bağlı statistik hesabatları toplamaq, ümumiləşdirmək və təhlil etmək, fəaliyyət istiqamətləri üzrə dövri və digər hesabatları hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

3.1.18. Mərkəzə ayrılan büdcə və qanunvericiliklə nəzərdə tutulmuş digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.19. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

### IV. Mərkəzin hüquqları

4.1. Mərkəz öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. məhkəmə ekspertizası, kriminalistika, kriminologiya və hüququn digər aidiyyəti sahələrində aparılmış elmi-tədqiqat işlərinin nəticələrini ekspert təcrübəsində tətbiq etmək;

4.1.2. məhkəmə və hüquq mühafizə orqanlarına kömək məqsədi ilə məhkəmə ekspertizasına dair metodik tövsiyələr vermək;

4.1.3. məhkəmə eksperti kadrlarının və mütəxəssislərin hazırlanması, onların ixtisaslarının artırılması üçün tədbirlər görmək;

4.1.4. verilmiş səlahiyyətləri daxilində xarici dövlətlərin qabaqcıl təcrübəsini öyrənmək;

4.1.5. ekspert praktikasını təhlil etmək, ümumiləşdirmələr aparmaq, tövsiyə və təkliflər vermək;

4.1.6. məhkəmə ekspertizasının aktual problemləri üzrə elmi-praktiki tədbirlər keçirmək;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.8. məhkəmə ekspertizasının aparılması üçün zərurət yarandıqda, mülkiyyət formasından asılı olmayaraq idarə, təşkilat və müəssisələrdən qanunvericilikdə nəzərdə tutulan qaydada etalon nümunələr və məlumatlar əldə etmək;

4.1.9. məhkəmə ekspertizası orqanlarının fəaliyyətini tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək;

4.1.10. statistik hesabat formalarının təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.1.11. verilmiş səlahiyyət daxilində ədliyyə orqanlarında qulluq keçmə barədə qanunvericiliyə müvafiq olaraq kadr işini həyata keçirmək;

4.1.12. tədqiqat işlərinin nəticələrinə dair materiallar və digər nəşrlər buraxmaq;

4.1.13. Nazirliyin sisteminə daxil olan qurumlara, digər dövlət orqanlarına və təşkilatlara sorğular vermək, onlardan məlumatlar almaq;

4.1.14. fəaliyyət istiqamətlərinə uyğun rəylər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq;

4.1.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.1.16. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

### V. Mərkəzin fəaliyyətinin təşkili

5.1. Mərkəzin strukturu və ştat vahidlərinin sayı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunur.

5.2. Mərkəzə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə razılaşdırılmaqla Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis Mərkəzə

Ardı 2-ci səhifədə

həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Mərkəzin rəisinin Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Mərkəzin rəis müavini ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Mərkəzin rəis müavini və işçiləri öz funksiyalarını vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

5.5. Mərkəz işini fəaliyyət istiqamətləri, habelə Nazirliyin və Mərkəzin iş planları əsasında həyata keçirir.

5.6. Mərkəzdə işin təşkili və vəziyyəti, iş planlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi və qarşıda duran vəzifələrlə əlaqədar məsələlər mütəmadi olaraq müzakirə edilir.

5.7. Mərkəzin rəisi:

5.7.1. Mərkəzin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.7.2. müavini və işçilər arasında vəzifə və iş bölgüsü aparır;

5.7.3. işçilər tərəfindən vəzifələrinin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

5.7.4. qanunvericiliklə müəyyən edilmiş vəzifələri yerinə yetirir, hüquqları həyata keçirir və məhdudiyyətlərə riayət edir;

5.7.5. ekspertin müstəqilliyi prinsipinə əməl olunmaqla aparılan tədqiqatların tamlığı və keyfiyyəti üzərində nəzarəti təmin edir;

5.7.6. ekspert təcrübəsinin ümumiləşdirilməsini və təhlilini təmin edir;

5.7.7. statistik və digər hesabatları, habelə Mərkəzin iş planını razılaşdırmaqla təsdiq edir, onun vaxtında və keyfiyyətli icrasına nəzarəti həyata keçirir;

5.7.8. fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə hazırlanmasını təmin edir;

5.7.9. Nazirliyin iş planında və kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

5.7.10. Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə təkliflər verir;

5.7.11. Mərkəzdə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və dövlət qulluğunun ixtisas dərəcəsinin verilməsi, ekspert ixtisası və ekspert ixtisas dərəcələrinin verilməsi, aşağı salınması və ya ləğvi, intizam tənbeh tədbirlərinin tətbiq olunması, habelə işçilərin vəzifədən kənarlaşdırılması ilə bağlı təkliflər verir;

5.7.12. səlahiyyətləri daxilində icrası məcburi olan əmr, sərəncam və yazılı göstərişlər verir;

5.7.13. Mərkəzin fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlarla əlaqələndirir;

5.7.14. kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını və məxfilik rejiminə riayət olunmasını təmin edir;

5.7.15. vətəndaşları qəbul edir, Mərkəzdə vətəndaşların qəbulu və müraciətlərinə baxılmasını təmin edir;

5.7.16. müəyyən edilmiş struktur, əmək haqqı fondu və işçilərin say həddi daxilində ştat cədvəlinə və ayrılmış büdcə təxsisatı çərçivəsində xərclər smetasına dair təkliflər verir;

5.7.17. dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə və səmərəli xərclənməsinə nəzarət edir;

5.7.18. məhkəmə ekspertizası ilə əlaqədar texniki təhlükəsizlik tədbirlərinə nəzarət edir;

5.7.19. səlahiyyətləri daxilində digər məsələləri həll edir.

5.8. Mərkəzin rəisi vəzifəsini icra edə bilmədikdə onun vəzifələrini müavin yerinə yetirir.

## 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsi parlament seçkilərinə tam hazırdır

Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə noyabr ayının 1-də keçiriləcək seçkilərə Naxçıvan Muxtar Respublikasında ciddi hazırlıq işləri görülür, ölkəmizin hər bir seçmək hüququ olan vətəndaşı qarşıdakı 5 ildə görmək istədiyi namizədə səs verməyə hazırlaşır. Ən layiqli namizədi seçmək üçün seçicilərə hərtərəfli şərait yaradılması diqqət mərkəzində saxlanılır. Bu günlərdə 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsində olduq. Məlumat üçün bildirək ki, bu dairədə 49 seçki məntəqəsində seçicilər öz namizədlərinə səs verəcəklər. Həmin məntəqələrdən 46-sı artıq fəaliyyətdədir. Məntəqələrin 21-i Babək rayonunda, 18-i Kəngərli rayonunda, 7-si Naxçıvan şəhərindədir. 3 məntəqə isə seçki gününə 5 gün qalanda yaradılacaqdır. Ümumilikdə, bu məntəqələrdə 43 min 677 nəfər səs verəcəkdir. Seçki prosesinin internet üzərindən izlənməsini təmin etmək məqsədilə dairənin 3-41, 3-42, 3-45, 3-12, 3-17 nömrəli seçki məntəqələrində veb-kameralar quraşdırılıb. Seçkilərin şəffaf, demokratik şəkildə başa çatdırılması üçün yaradılan şərait ürəkaçandır. Bütün məntəqələr lazım olan avadanlıqlarla təchiz ediliblər. Məntəqələr telefonlaşdırılıb. Hər bir məntəqədə iş planı və növbətçilik cədvəli tərtib olunub. Seçki günü və yerini göstərən bildirişlər seçicilərə paylanılıb.

Babək qəsəbə tam orta məktəbinin binasında Azərbaycan Respublikasının Milli Məclisinə 3-41 və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 19-1 nömrəli seçki məntəqələri yaradılıb. Burada hər iki məntəqə tərəfindən ayrı-ayrılıqda hazırlanmış "Seçicinin məlumat lövhəsi" vasitəsilə məntəqə seçki komissiyalarının tərkibi, dislokasiyaları, iş planları, komissiya üzvlərinin vəzifə bölgüsü, deputatlığa qeydə alınmış namizədlərlə tanış olmaq mümkündür. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə 3-41 saylı məntəqə seçki komissiyasının sədri Əli Hacıyev bildirdi ki, məntəqədə görülən işlər Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq mərhələlər üzrə həyata keçirilib. Seçici siyahıları dəqiqləşdirilib. Seçkidə 1186 seçicinin səs verəcəyini diqqətə çatdıran komissiya sədri onu da bildirdi ki, onlardan 1-i 1919-cu il təvəllüdlü, 31 nəfəri ilk dəfə səs verənlərdir. İlk dəfə səs verəcək seçicilərlə söhbətlər aparılıb.

Rayon Mədəniyyət Evində yaradılmış 3-42 və 19-2 saylı məntəqələrdə 1164 nəfər seçici səs verəcək ki, onlardan 16 nəfəri ilk dəfə səs verənlər siyahısındadırlar.

Şıxmahmud kənd tam orta məktəbində təşkil edilmiş 3-34, 22-1, Şıxmahmud kəndindəki uşaq musiqi, Yuxarı Uzunoba, Şəkərabad kənd tam orta məktəblərinin binalarında təşkil edilmiş 3-35, 22-2, 3-31, 22-6, 3-32, 22-5, 3-43, 19-5 saylı məntəqələr də seçkilərə tam hazırdır.

## Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyi qeyd olunub



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının birgə təşkilatçılığı ilə görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyi münasibətilə tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası komandirinin şəxsi heyət üzrə müavini vəzifəsini icra edən, polkovnik-leytenant Allahyar Allahyarov açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək Kəngərlilər nəslinin Azərbaycan hərb tarixindəki rolundan danışıb, Kəngərli generalları haqqında məlumat verib. Bildirib ki, Cəmşid xan Naxçıvanski Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan, repressiyalara məruz qalan, iki dəfə haqqında ölüm hökmü çıxarılan, amma bütün bunların qarşısında sınmayan bir şəxsiyyət idi. Buna görə də Kəngərli tayfasının onlarla görkəmli insanı arasında Cəmşid xan Naxçıvanskinin həyatı və fəaliyyəti maraqlı məqamları ilə seçilir.

Məmməd Babayev "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 aprel tarixli və "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 aprel 2015-ci il tarixli sərəncamlarının əhəmiyyətindən danışıb. İmzalanan sərəncamların bu görkəmli şəxsiyyətin, hərb xadiminin həyat və fəaliyyətinin işıqlandırılmasına, onun xatirəsinin yad edilməsinə doğru yönəldilmiş növbəti addım olduğu qeyd edilib.

Sonra "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zabiti, mayor Fuad Heydərov çıxış edərək deyib ki, general Cəmşid Naxçıvanskinin adı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Onun keçdiyi ömür yolu bugünkü və gələcək nəsillərə nümunədir.

Natiq çıxışında Cəmşid Naxçıvanskinin həyatı, fəaliyyəti, keçdiyi döyüş yolu, Azərbaycan hərb tarixindəki yeri barədə ətraflı məlumat verib.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası komandirinin şəxsi heyət üzrə müavini vəzifəsini icra edən, polkovnik-leytenant Allahyar Allahyarov tədbirə yekun vurub.

Sonra tədbir iştirakçıları Naxçıvan televiziyasının hazırladığı "Sərkərdə" sənədli filminə baxıblar.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası məqsədilə muxtar respublikada fəaliyyət göstərən müxtəlif nazirlik və təşkilatların nümayəndələri Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisaslarının tələbələri ilə görüşlər keçirir.***

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları tələbələrlə görüşüb



Növbəti görüş Naxçıvan Muxtar Respublikası Prokurorluğu əməkdaşlarının universitetin Hüquqşünaslıq ixtisasının IV kurs tələbələri ilə olub.

Universitetin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev sözügedən sərəncamın əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kadrlar şöbəsinin rəisi, baş ədliyyə müşaviri Zəfər Mahmudov adıçəkilən sərəncamın icrası ilə bağlı prokurorluqda görülən və görüləcək işlər barədə məlumat verib. Bildirib ki, hazırlanmış tədbirlər planında Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakı və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsi, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi sahəsi üzrə məhkəmələrdə iştirakı, prokurorluğun imtahan-informasiya sistemində nəzəri bilik səviyyələrinin kompüter vasitəsilə yoxlanması, gələcək hüquqşünasların Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kitabxanasından və qanunvericilik bazası sistemindən istifadə etmələri, istehsalat təcrübələri keçmələri nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Faiq Səfərov prokurorluğun fəaliyyət istiqamətləri və fəaliyyətinin əsas prinsipləri barədə məlumat verib.

Görüş universitetlə mütəmadi əməkdaşlığın perspektiv istiqamətlərinin müzakirəsi ilə yekunlaşıb.

## Naxçıvan şəhərində yeni quruculuq ünvanları

***Muxtar respublikada əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Son illərdə Naxçıvan şəhərində də mənzil tikintisinin həcmi xeyli artıb. Yeni yaşayış binalarının tikilməsi və mövcud binaların əsaslı şəkildə yenidən qurulmasında əsas məqsəd sakinlərin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılmasıdır.***





Bu tədbirlərin davamı olaraq, hazırda Naxçıvan şəhərinin Əliqulu Qəmküsar küçəsində 8 mərtəbəli yeni yaşayış binasının tikintisi davam etdirilir. Tikinti işlərinə 2015-ci ilin mart ayında başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları binanın bütün mərtəbələrində qəlib-beton, hörgü işlərini başa çatdırıb, suvaq işlərinə başlayıblar. Hazırda daxildə suvaq işləri davam etdirilir. Binanın dam örtüyünün qurulmasına başlanılıb. 450 kvadratmetr sahədə ucaldılan yaşayış binasında 32 mənzil yerləşəcək ki, bu mənzillərdən 8-i üçotaqlı, 24-ü isə ikiotaqlı olacaq.

Son illər Naxçıvan şəhərində müasir yaşayış binalarının, xidmət sahələrinin istifadəyə verilməsi ilə yanaşı, dövlət qurumlarının səmərəli fəaliyyəti də diqqət mərkəzində saxlanılır, yeni inzibati binalar tikilir. Bütün bu tədbirlər əməkdaşların yaxşı şəraitdə işləməsinə hesablanıb.

Bu tədbirlərin davamı olaraq, Naxçıvan şəhərinin Cəlil Məmmədquluzadə küçəsində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün yeni bina inşa edilir. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilən bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olacaq.

Obyektin iş icraçısı Akif Quliyevin bildirdiyinə görə, burada inşaat işlərinə bu ilin aprel ayında başlanılıb. Ötən müddətdə zirzəmi qatında və binanın birinci mərtəbəsində qəlib-beton işləri başa çatdırılıb, ikinci mərtəbədə qəliblərin quraşdırılmasına başlanılıb.

Məlumat üçün bildirək ki, sözügedən komitə üçün inşa edilən yeni binada hər cür şəraitə malik iş otaqları, qurumun əhatə etdiyi sahələrə aid fondlar, mətbəə, arxiv, server otağı, 10000 ədəd kitab üçün nəzərdə tutulmuş elmi kitabxana, laboratoriya, 108 yerlik iclas zalı yaradılacaq, binanı qış aylarında fasiləsiz istiliklə təmin etmək üçün fərdi qazanxana quraşdırılacaq.

**Xəbərlər şöbəsi**

## “Kitabi-Dədə Qorqud” dastanı Əlincəqalanın adı çəkilən ən qədim mənbədir

*Azərbaycan xalqının möhtəşəm ədəbi abidəsi, qəhrəmanlıq dastanı, yüksək bəşəri ideyalar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuş “Kitabi-Dədə Qorqud” dastanı ilk dəfə alman alimi Fridrix fon Dits tərəfindən elmi dövriyyəyə daxil edilmişdir.*

Drezden Kral Kitabxanasında dastanla tanış olduqdan sonra o, “Basatın Təpəgözü öldürdüyü boy”u alman dilinə çevirmiş və 1815-ci ildə nəşr etdirmişdir. Bununla da, “Kitabi-Dədə Qorqud” dastanı elmi dövriyyəyə daxil edilmiş və tədqiqat obyektinə çevrilmişdir. Bu il həmin hadisənin 200 ili tamam olur. Ona görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 fevral 2015-ci ildə “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır.

Sərəncamdan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 25 iyul 2015-ci ildə “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planını təsdiq etmişdir. Tədbirlər Planına əsasən, Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir.

Dünya xalqlarının ən möhtəşəm şifahi xalq ədəbiyyatı nümunələri ilə bir sırada duran, yaranma tarixi haqqında müxtəlif fikirlər olan bu dastanla əlaqədar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 20 aprel 1997-ci ildə imzaladığı “Kitabi-Dədə Qorqud”un 1300 illiyi haqqında” Fərmandan sonra YUNESKO Beynəlxalq Mədəniyyət Təşkilatı 1998-ci ili “Dədə Qorqud ili” elan etmişdir. YUNESKO kimi nüfuzlu bir təşkilatın “Kitabi-Dədə Qorqud” dastanına belə yüksək önəm verməsi, onun 1300 illiyinin qəbul olunması beynəlxalq elmi ictimaiyyət tərəfindən dastanın ən azı 1300 il bundan əvvəl yaranması fikrinin qəbul olunması deməkdir.

Fərmandan sonra tədqiqi sahəsində yeni mərhələ başlayan dastan haqqında aparılan son tədqiqatlar sübut edir ki, Dəmir qapı Dərbənddən başlamış Borçalı çökəyinə, Gəncəbasara, Qarsa, Ərdahana, Göyçə gölünə, Ağrı dağına, Naxçıvana, Əlincə qalasına, Bayburta, Ərzuruma, Diyarbəkrə, Vana qədər çox geniş bir coğrafi ərazidə cərəyan edən hadisələri özündə əks etdirən, eyni zamanda qədim türk xalqlarının bədii təfəkkürünün qiymətli incisi, Azərbaycan xalqına məxsus, məşhur qorqudşünas Ş.Cəmşidovun təbirincə desək, “tarixçi üçün xalqımızın tarixi, ədəbiyyatşünas üçün onun epopeyası, etnoqraf üçün isə milli əlamətlər salnaməsi” olan dastanda bəhs olunan hadisələr Naxçıvan bölgəsi ilə sıx bağlı olmuşdur. Bunu təsdiq edən əsas faktlardan biri dastanda özünə yer alan, tarixin çox sanballı qaynaqlarından sayılan yer adları – toponimlərdir.

Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan diyarının və ona qonşu olan bölgələrin “Dədə Qorqud” dastanları ilə səsləşən yer adlarını, xalq ədəbiyyatı nümunələrini daha dərindən və əhatəli şəkildə öyrənilməsini tədqiqatçıların qarşısında duran aktual vəzifə kimi müəyyənləşdirmişdir.

Bu vəzifəyə uyğun olaraq Naxçıvanda qeyd olunan istiqamətdə tədqiqatlar genişlənmişdir. Bu sahədə AMEA-nın müxbir üzvü, professor Səfərəli Babayevin apardığı tədqiqatlar xüsusilə diqqəti cəlb edir. 1999-cu ildə nəşr olunan “Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri” monoqrafiyası göstərir ki, “Kitabi-Dədə Qorqud” dastanında Naxçıvanla əlaqədar 50-dən artıq toponim və mikrotoponim vardır. Bu toponimlər içərisində Naxçıvan ərazisində indiyədək qalan qala adlarına (Qazançı qalası, Dana qalası, Əlincəqala) da rast gəlirik. Bu qalalar içərisində Əlincəqalanın Azərbaycanın tarixində xüsusi yeri və mövqeyi vardır.

Əlincə mahalının ortasından keçən Əlincəçayın sol sahilində yerləşən Əlincə dağının zirvəsində inşa edilən Əlincəqalanın adına dastanın “Uşun Qoca oğlu Səgrək boyunu bəyan edər” boyunda rast gəlinir. Bu boyda Əlincəqalanın adı üç dəfə xatırlanır.

Boyun məlumatına görə Uşun Qocanın oğlu Əgrək “Şərukun (bu toponim tədqiqatçılar tərəfindən müxtəlif cür təqdim olunur: Şərur, Şəruk, Şürük, Şirokuz, Şirəküvəz və sair) ucundan Göyçə dənizə təkin el çarpmış”, ... “Yolu Əlincə qələsinə oğramışdı”. Burada o, Qara Təkurun adamları tərəfindən tutulmuş və Əlincə qalasında zindana salınmışdı. Bir öksüz oğlanın Əgrəyin qardaşı Səgrəyə “Hünərin var isə qardaşın Əlincə qələsində əsirdir, var, onu qurtar!” deməsindən sonra qardaşı olduğunu bilən Səgrək onu əsirlikdən qurtarır. Ancaq boyun digər yerlərində Əlincəqalanın adı olduğu kimi deyil, sadəcə olaraq, “qala” kimi işlənmişdir.

Dastandan aydın olur ki, hadisələr baş verən vaxt Əlincəqala Qara Təkurun əlində olmuş, ondan həm müdafiə qalası, həm də zindan kimi istifadə edilmişdir.

Dastanın məlumatları təsdiq edir ki, Əlincəqaladan yarandığı andan həm də zindan kimi istifadə olunmuşdur. Qeyd etmək lazımdır ki, Əlincəqalada olan zindandan sonralar da istifadə olunmuş, Azərbaycan feodal dövlətlərinin hökmdarları ən əhəmiyyətli və təhlükəli dustaqları orada saxlamışlar.

Professor P.Xəlilov qeyd edir ki, böyük qardaş Əgrəklə kiçik qardaş Səgrəkin marşrutu İç oğuz hüdudları haqqında parlaq təsəvvür yaradır. Böyük qardaş Qazan bəydən icazə alıb Şirəküvəz (və ya Şirəküvan) ucundan Əlincə qalasına qədər gedir və İç oğuzun şimal sərhədi boyu gəzir, sonra Göyçə gölündən cənuba getmək istəyəndə Əlincə qalasında əsir olur. Kiçik qardaş onu azad edəndə yolunu cənuba salır. Dərəşam suyunu keçir və Araz boyu geri dönüb yurduna qayıdır. Dərəşam Culfa rayonundakı Dərəşam stansiyası yaxınlığındakı mineral bulaq suları hesab edilir.

AMEA-nın müxbir üzvü Səfərəli Babayev isə yazır ki, Dərəşam Culfa rayonu ərazisində, Arazın sol sahilində qədim kənd olmuşdur. Onun yaxınlığında Dərəşam mineral bulaqları yerləşir. Bundan başqa, bu oykonimlə üzbəüz Arazın sağ sahilində də Dərəşam kəndi olmuşdur. Bizcə, dastanda adıçəkilən Dərəşam Arazın sol sahilindəki, Naxçıvan Muxtar Respublikası ərazisindəki Dərəşamdır. Qardaşların Əlincə qalasından qayıdarkən üzüb keçdikləri Dərəşamsuyu Araz çayıdır.

***“Kitabi-Dədə Qorqud” dastanı Əlincəqalanın adı çəkilən ən qədim mənbədir. Orada qala ilə əlaqədar verilən məlumatlar Əlincəqalanın tarixi haqqında əlimizdə olan ilk məlumat kimi çox qiymətlidir. 1300 illik tarixə malik olan “Kitabi-Dədə Qorqud” dastanında qalanın adının xatırlanması təsdiq edir ki, Əlincəqala VII əsrdə mövcud imiş. Deməli, onun əsası VII əsrdən əvvəlki dövrlərdə qoyulmuşdur.***

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*

## Muxtar respublikada turizm yeni inkişaf mərhələsindədir

***Turizm sahəsində yüksək nəticələr əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm heç də təkcə zəngin ehtiyatlar hesabına öz-özünə inkişaf edən bir sahə deyildir. Əksinə, turizm hər kəsdən öz töhfəsini gözlədiyi çox həssas bir münasibətlər sistemidir. Buna görə də hər bir regiondakı turizm-rekreasiya kompleksinə ixtisaslaşmış bir sahə kimi yanaşma tələb olunur ki, bu da turizm sahəsində dərin bilik, bacarıq və yüksək məsuliyyət tələb edir.***



Müasir dövrdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı öz spesifikası ilə seçilir. Təqribən, on beş-iyirmi il öncəsinə nəzər saldıqda muxtar respublikada mövcud olan turizm ehtiyatlarının, demək olar ki, istifadədən kənarda qalması müşahidə olunurdusa, hazırda Naxçıvana səyahət edən turistlər üçün çox geniş məzmunlu rekreasiya-tanışlıq imkanları yaradan bir şərait vardır. Turizmin cəmiyyətin ümumi inkişafı ilə ahəngdar olduğunu nəzərə alsaq, son iyirmi il ərzində Naxçıvan Muxtar Respublikasında turizm sahəsində əldə olunan nailiyyətlər bu baxımdan diqqəti cəlb edir. İndi artıq həm muxtar respublikaya xaricdən və ölkəmizin digər yerlərindən turistlərin gəlməsinə, həm də naxçıvanlıların öz istirahətini mənalı keçirmək üçün istədiyi turizm mərkəzinə səyahət etməsinə adi hal kimi baxsaq da, ötən dövr ərzində görülmüş bütün işlər bunun heç də sadə yolla başa gəlmədiyini göstərir.

Ötən dövrdə Naxçıvanda gəlmə turizmin inkişafı üçün mövcud turizm ehtiyatlarının potensialından istifadəyə imkan verən turizm infrastrukturunun yaradılması çoxpilləli və mərhələli keçən bir proses olmuşdur. Muxtar respublikada sosial-mədəni şəraitin, yol-nəqliyyat infrastrukturunun yenilənməsi, müasir komfortlu istirahət mərkəzlərinin yaradılması, bütövlükdə, həyata keçirilən müasir quruculuq və abadlıq işlərinin tərkib hissəsi kimi indi öz əhəmiyyətini açıq göstərməkdədir. Bütün bunlar isə dövlətimizin regional inkişafa və qeyri-neft sektoruna göstərdiyi diqqətlə mümkün olmuşdur. Naxçıvan ildən-ilə abadlaşıb gözəlləşdikcə buraya səyahət edənlərin də sayı artmaqdadır. Söz yox ki, bu, Şərqlə Qərbin qovşağında yerləşən Naxçıvanın inkişafını, Azərbaycanın mədəniyyətini dünyaya tanıtmaq üçün yaxşı fürsətdir. Bu fürsət isə yaxın keçmişdə olmamış, əksinə, sovet hakimiyyəti dövründə sərhədyanı bir bölgə kimi Naxçıvan Muxtar Respublikasına xarici turistlərin səyahətləri məhdudlaşdırılmışdı. Halbuki turizmin sirlərinə bələd olanlar təsdiq edə bilər ki, Naxçıvan Muxtar Respublikası ümumi halda özünün bütün turizm potensialı ilə turistlərə həm zəngin rekreasiya, həm də mənəvi zənginlik təəssüratı vəd edən nadir bölgələrdən biridir. Çünki buradakı təbiət möcüzələri sanki ahəng qanununa tabe olmuş kimi bir-birini tamamlamaqda, dərin məzmuna malik olan mədəni ehtiyatlar milli qonaqpərvərlik elementlərilə bitkinlik təşkil etməkdədir. Hazırda Naxçıvanda müasir turizmin mühüm şərtlərindən biri olan təhlükəsizlik və rahat səyahət şərtləri ən yüksək dərəcədə təmin olunmaqdadır. Qeyd etmək lazımdır ki, sonuncu faktor hazırda bütün turistləri səyahət etdikləri yerlərdə daha çox düşündürən məsələlərdəndir. Naxçıvana səyahət edən turistlər isə burada onları tam asayiş, gülərüz otel personalı, sakit, qayda-qanunlu şəhər, nümunəvi taksi və dürüst ticarət xidmətləri gözlədiyindən tam əmindirlər.

Müasir Naxçıvan kəndlərində yaradılmış unikal şərait – rahat yol, müasir infrastruktur obyektləri, hər şeydən əvvəl, burada kənd turizminin inkişafı üçün əlverişli imkanlar yaradır. Muxtar respublikamızda özəl sektora verilən dəstək xidmət sektorunda yerli əhalinin iştirakına, burada yeni sahələrin inkişaf etdirilməsinə geniş imkanlar açır. Bu baxımdan Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzini xüsusilə qeyd etmək lazımdır. Bu mərkəz təkcə burada təklif olunan rekreasiya xidmətləri ilə məhdudlaşmayıb, muxtar respublikada həyata keçirilən sosial layihələrin də bir mərkəzi halına gəlmişdir. Mərkəz ilin müxtəlif fəsillərində burada öz asudə vaxtını səmərəli keçirən məktəbli gənclərin ekoloji tərbiyəsi və müxtəlif həssas əhali qruplarının zəruri tələbatlarının ödənilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, Şahbuz, Ordubad və Culfanın geniş panoramalı dağlıq relyefi, atmosferin təmizliyi və diqqətlə qorunan biomüxtəliflik burada ekoturizmin müxtəlif növləri üçün geniş imkanlar açır.

Turizm sülh və sabitlik şəraitində inkişaf edən, həm də iqtisadiyyatın bir çox sahələrini inkişaf etdirən, ölkəni tanıdan güclü bir stimuldur. Turizmin bu funksiyası, ilk olaraq, onun ölkə və region iqtisadiyyatına və cəmiyyətin humanitar inkişafına verdiyi töhfələrdən ibarətdir. Başqa sözlə, bizə səyahət edən turistlər eyni zamanda ölkəmiz haqqında informasiya ixrac edən xoşməramlı elçilərdir. Bu baxımdan hazırda öz mədəniyyətimizi tanıtmaq turizm strategiyamızın da əsasını təşkil edir. Bu gün Naxçıvan dövlət başçılarının zirvə toplantısı keçirilən bir mərkəz halına gəlmiş və 2018-ci ildə Naxçıvan İslam Mədəniyyətinin paytaxtı elan olunmuşdur. Artıq muxtar respublikamıza daha zəngin ölkələrdən turistlərin gətirilməsi, turizmin sosial gücü daha ağır olan növlərindən istifadə olunması zərurəti yaranmışdır. Bu baxımdan Naxçıvan Duzdağında təşkil olunan müalicə turizmi özünün rekreasiya və müalicə əhəmiyyətinə görə bu coğrafiyada analoquna az rast gəlinən bir yerdir. Burada pulsuz müalicə alan Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı, 2012-ci ildən başlayaraq Gürcüstandan da gələn uşaqlar üçün eyni şəraitin yaradılması beynəlxalq turizm üçün tutarlı bir nümunədir. Ölkəmiz inkişaf edib iqtisadi imkanları artdıqca onun beynəlxalq aləmdə imicini möhkəmləndirən belə layihələrin də icrası imkanları genişlənir. Bu isə, ilk növbədə, turizm və digər sosial-mədəni sahələrdə həyata keçirilən işlərin keyfiyyəti ilə əlaqədardır.

Cəmiyyətin inkişafı ilə müxtəlif sahələrdə, o cümlədən turizm-rekreasiya kompleksində özünü göstərən bu keyfiyyət amili sahənin kadr təminatı olmadan mümkün deyildir. Təcrübə göstərir ki, turizm sahəsində keyfiyyətli kadr hazırlığı bu baxımdan daha aktualdır. Çünki insanlara canlı xidmət göstərilməsi, turizmin dövlət tənzimlənməsi ilə yanaşı, dünyada ciddi tələblər qoyulan peşəkar qonaqpərvərlik şərtlərinə əməl olunması məhz bu sahə üzrə mütəxəssis olanların işidir. Bu baxımdan Naxçıvanda Turizm və otelçilik ixtisası üzrə ali təhsilli kadrların hazırlanmasına göstərilən diqqət son on il ərzində öz bəhrəsini vermişdir. Bütün bunlar gələcəkdə Naxçıvanda turizm sənayesinin tam olaraq peşəkarlara həvalə olunması üçün etibarlı zəmin yaradır. İndi daha iyirmi il əvvəlkindən fərqli olaraq Naxçıvana gəlmiş turistləri peşəkarcasına qarşılayıb zəngin təəssüratla yola salmağı bacaran bir potensialdan danışmaq olar.

Muxtar respublika ərazisindəki komfortlu otellərdə yerləşən turistlərə yüksək səviyyəli xidmətlər təklif olunur. Hazırda muxtar respublikada müxtəlif tutumlu 20-dən artıq mehmanxana vardır. Birdəfəlik tutumu 1500 nəfərdən çox olan bu mehmanxanalarda qonaqların rahat gecələməsi, burada işgüzar görüşlər keçirməsi, restoranlarımızda hazırlanan ləziz milli yeməklərdən dadması mümkündür. Naxçıvanın “Duzdağ”, “Təbriz”, “Qrand”, “Avtovağzal” otellərində qalan turistlər buradakı xidmətlərdən, göstərilən qonaqpərvərlikdən razılıq edirlər.

*Beləcə, çox qısa bir müddətdən sonra dünya mədəniyyətində dərin izlər qoymuş Naxçıvanın turizm yolu ilə tanınması və təbliği üçün qarşımızda çox əlverişli fürsətlər yaranmışdır. İndi Naxçıvana hər il səyahət edən 400 min nəfərdən çox turist buraya gəlişində müasirliklə keçmişin uğurlu sintezinə şahid olur, qədim diyarımızdan ayrıldıqdan sonra onun haqqında ürəkdolusu təəssüratlarını öz dost-tanışları ilə bölüşür.*

**✍ Əli CABBAROV**
**Yazı “Naxçıvan: müstəqillik illərində” gənclər arasında yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür**

Cəmiyyət və din

# Kərbəla hadisəsində vətən sevgisi, əqidəyə sədaqət nümunəsi vardır

*Bu günlərdə İslam dünyasının bir çox xalqları tərəfindən Kərbəla hadisəsi bir daha yad edilir, şəhidlərin ruhuna dualar oxunur, faciədən çıxarılan dərslər nəzərdən keçirilir. Tanınmış filosoflardan Tomas Korlaylın dediyi kimi, "Kərbəla faciəsindən aldığımız ən gözəl dərs odur ki, Hüseyn və onun silahdaşları Allaha möhkəm bir imanla bağlanmışdılar. Onlar öz əməlləri ilə sübut etdilər ki, haqq ilə batil üz-üzə dayandığı bir məqamda batilin sayca üstün olmasının heç bir əhəmiyyəti yoxdur". Alman filosofu Marbani isə deyirdi: "Müsəlmanların mövcudluğu Hüseynin şəhadəti ilə bağlıdır. Ona görə ki, Hüseyn eşqi ilə yanan bir şəxs heç vaxt zilləti, köləliyi qəbul etməz".*

*Bir sıra tarixçilərin, filosofların da məsələyə məhz bu kontekstdən yanaşması belə deməyə əsas verir ki, faciə ilə nəticələnən hadisənin mənəvi tərəfi daha böyük əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayevlə söhbətimizdə də Kərbəla hadisəsinin mahiyyəti və bu faciənin başvermə səbəbləri barədə oldu. İmam Hüseyn inqilabı kimi tarixdə böyük iz qoyan hadisənin səbəbləri barədə danışan Vüqar Babayev dedi:*

– Kərbəla hadisəsini təfsir edib həqiqi mahiyyətini başa düşmək olduqca çətindir. Tarixdə də bu barədə ətraflı məlumat verilməmişdir. Bu böyük hadisəyə yol açan amillərin mürəkkəbliyi səbəbindən hərə onu bir cür aydınlaşdırmağa, bəziləri də ondan sui-istifadə etməyə çalışmışdır.

Tarixdə qeyd olunanlara nəzər yetirsək görürük ki, İmam Hüseyn inqilabı haqqın, ədalətin, İslam dininin əsaslarının qorunması, baş alıb gedən haqsızlığın aradan qaldırılması naminə baş verib. Xilafətin və hökumətin irsi bir məsələ olmadığı, ancaq Allahın əmri və Peyğəmbərin vasitəsilə təyin olunan şəxsin rəhbər ola biləcəyi bu hadisənin mahiyyətini təşkil edir, xəlifəni həm də xalqın seçməli olduğu vurğulanır.

İmam Hüseyn ölkədə baş alıb gedən özbaşınalığa, haqsızlığa, əxlaqsızlığa qarşı inqilab etmişdir. O, vətəninin, müsəlmanların gələcəyini düşünmüş, öz həyatını haqq-ədalət yolunda qurban vermişdir. Əqidəyə, tutduğu haqq yola sədaqət nümunəsi göstərmişdir. Bu yolda göstərdiyi böyük fədakarlıq ilə yüzillərboyu insanların dərin sevgisini qazanmışdır.

*– İslam alimləri Məhərrəm ayı, xüsusən də bu aydakı Aşura gününün hikməti barədə mühüm hədislərin olduğunu qeyd edirlər...*

– Bəli, Peyğəmbərimiz tərəfindən Məhərrəm ayı "Allahın ayı" olaraq ifadə edilmişdir. Aşura günü isə Məhərrəm ayının 10-cu günüdür. Aşura gününün Allah qatında ayrı bir yeri vardır. Bu gündə Cənabu-Haqq on Peyğəmbərinə on mükafat təqdim etmişdir. Bu ayda oruc tutmaq çox savabdır. Məhərrəm ayının digər aylar arasında ayrı bir yeri olduğu kimi, Aşura günü də digər günlər içində daha mübarək və bərəkətli gün kimi bilinməkdədir. "Qurani-Kərim"in "Fəcr" surəsində "On gecəyə and olsun" ifadəsi ilə Ulu Tanrı bu gecələrə and içərək onların üstünlüyünü və bərəkətini bildirmişdir. Peyğəmbərimizin hədislərində də bu günə bu adın verilməsinin hikməti, o gündə Cənabu-Haqqın on Peyğəmbərinə qeyd edəcəyimiz mükafatları lütf etməsindədir:

*1. Allah Musa Peyğəmbərə Aşura günündə bir möcüzə lütf etmiş, dənizi yararaq Musa Peyğəmbəri və qövmünü xilas etmiş, Firon ilə ordusunu sulara qərq etmişdir.*

*2. Nuh Peyğəmbərin gəmisi Cudi dağının üzərində Aşura günündə dayanmışdır.*

*3. Yunis Peyğəmbər balığın qarnından həmin gün xilas olmuşdur.*

*4. Adəm Peyğəmbərin tövbəsi Aşura günü qəbul edilmişdir.*

*5. Yusif Peyğəmbər qardaşlarının atmış olduğu quyudan Aşura günü çıxarılmışdır.*

*6. İsa Peyğəmbər o gün dünyaya gəlmiş və o gün səmaya yüksəldilmişdir.*

*7. Davud Peyğəmbərin tövbəsi o gün qəbul edilmişdir.*

*8. İbrahim Peyğəmbərin oğlu İsmayıl Peyğəmbər o gün doğulmuşdur.*

*9. Yaqub Peyğəmbərin oğlu Yusif Peyğəmbərin həsrətindən bağlanan gözləri o gün görməyə başlamışdır.*

*10. Əyyub Peyğəmbər o gün şəfa tapmışdır.*

Beləliklə, mənalı və qüdsi hadisələrin ildönümü olan bu mübarək gün və gecə səadət əsrindən bəri müsəlmanlar tərəfindən həmişə qeyd olunmuşdur. Bu günlərdə ibadətə daha çox zaman ayıranlar başqa günlərə nisbətdə daha çox xeyir tapmışlar. Cənabu-Haqqın bu günlərdə edilən ibadətləri, tövbələri qəbul edəcəyinə dair hədislər mövcuddur.

*– Qeyd etdiklərinizdən belə aydın olur ki, Məhərrəm ayı və xüsusən Aşura günü təkcə müsəlmanlar tərəfindən deyil, həm də digər dinlərin nümayəndələri tərəfindən müqəddəs ay və müqəddəs gün hesab edilir. Bununla bağlı əsaslı faktlar varmı?*

– Bunu təsdiq edən bir çox fakt vardır. Belə ki, Məhərrəm ayı və Aşura günü əhli-kitab olan xristian və yəhudilər tərəfindən də müqəddəs sayılarmış. Məhəmməd Peyğəmbər Mədinəyə hicrət etdikdən sonra orada yaşayan yəhudilərin oruclu olduqlarını öyrəndi və "Bu, nə orucudur?" – deyə soruşdu. Yəhudilər "Bu gün Allahın Musanı düşmənlərindən qurtardığı, Fironu dənizdə boğdurduğu gündür. Musa Peyğəmbər şükür olaraq bu gün oruc tutmuşdur", – dedilər. Aşura günü tək əhli-kitab arasında deyil, Nuh Peyğəmbərdən, İslamdan əvvəl – cəhalət dövründə də ərəblər arasında İbrahim Peyğəmbərdən bəri müqəddəs bir gün olaraq bilinmiş və həmin ay oruc tutulmuşdur. Aşura gününün mənəvi aydınlığı üzərində Kərbəla qaranlığı da görünməkdədir.

*– Kərbəla hadisəsi bizə nəyi ifadə edir? Yəni bu hadisənin mahiyyətinə nəzər salsaq, buradan hansı nəticələri çıxara bilərik?*

– Həqiqətən də, Kərbəla faciəsi müsəlman ümmətinin tarixinə kədərli, lakin eyni zamanda insanlara qeyrət, qürur bəxş edən bir hadisə kimi daxil olub. Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, həzrəti Hüseynin həyat və mübarizəsinin yad edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, Hüseynin mübarizəsində vətən sevgisi, əqidəyə sadiqlik uğrunda səfərbərolma hikməti vardır. Bu mübarizə bədbinlik əhval-ruhiyyəsinin təlqini deyil, torpağa bağlılığın, işğal olunmuş ərazilərin azad edilməsi uğrunda fədakarlığa və dəyanətə çağırışın təcəssümüdür.

*– Təəssüf ki, dini-mənəvi baxımdan çox əhəmiyyətli bir gün olan Aşura günündə bəzən insanların özlərinə xətər yetirmələrinin də şahidi oluruq. Dini nöqteyi-nəzərdən bunun hər hansı bir əsası varmı?*

– Allah-Təala insana canı əmanət olaraq verib. Onu ancaq din, vətən yolunda fəda etmək olar. Keçmişdən bu günə qədər hər kəs bir cür İmam Hüseyn üçün fədakarlıq edir. Tövsiyə olunmur ki, insanlar bədənlərinə zəncir vurmaqla, baş yarmaqla qan çıxarsınlar. Bəzi insanlar bunu təsəlli xatirinə edirlər. Ancaq Aşura günü baş yarmaq, zəncir, sinə vurmaq və ya digər hər hansı lazımsız, əhəmiyyətsiz şeylər etməyin heç bir mənası yoxdur. Baş yarıb boş yerə qan tökməkdənsə, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin və Dini Qurumlarla İş üzrə İdarəsinin rayon və şəhər məscidlərində təşkil etdiyi qanvermə aksiyalarında iştirak etmək daha məqsədəuyğundur.

Müsəlman dünyasında ilk dəfə olaraq bu addım Azərbaycanda atılıb. Biz məscidlərimizdə qanvermə aksiyası keçirməklə cəmiyyətə bir mesaj vermiş oluruq. Belə ki, verdiyimiz qan xalqımıza yardım xarakteri daşıyır. Qana ehtiyacı olan xəstələrə qanımızı verməklə onlara, bir növ, dəstək vermiş oluruq. Bununla da, Aşurada müxtəlif vasitələrlə bədəndən qan çıxarmağın əleyhinə olduğumuzu bir daha nümayiş etdiririk.

Qeyd etdiyimiz kimi, İmam Hüseyn haqq, ədalət yolunda şəhid olub. Aşura günü İmam Hüseynlə bərabər, xalqımız həm də torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan vətən oğullarını da yad edir. İmam Hüseyn məktəbi elə bir məktəbdir ki, onu biz xalqa çatdırmaqla şücaət məktəbini əməli formada təqdim etmiş olarıq. Harada şəhidlik məqamı varsa, orada şücaətlik, vətən sevgisi var.

Həzrəti Hüseyn şəhidlik mükafatının ən uca mərtəbəsinə çatmışdır. Qədər hökmünə inanan hər bir mömin bu hadisəyə kədərlənər, ancaq etiqadını və soyuqqanlılığını itirməz; duyğular səhvlərə, özünə və digərlərinə qarşı şiddətə aparmamalıdır. Çünki meydana gələn bütün hadisələr əzəli təqdirin bir hökmüdür. Bu baxımdan bunu yas mərasimi halına çevirmək dinimizin etiqad və inancına ziddir.

**Rauf ƏLİYEV**

## Ümumtəhsil müəssisələrində nümunəvi dərslərin təşkili davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 14 mart 2015-ci il tarixdə "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Sərəncam imzalamışdır.*

Sərəncamda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin, ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslərin təşkil olunması nəzərdə tutulmuşdur. Adıçəkilən sərəncama müvafiq olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi birgə qrafik hazırlamışdır. Qrafikə uyğun olaraq, AMEA Naxçıvan Bölməsində çalışan 51 nəfər elmi əməkdaş Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslərin keçilməsində fəal iştirak edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı 20 fevral 2015-ci il tarixli "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında", Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 25 iyul 2015-ci il tarixli "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında" sərəncamlarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında müxtəlif tədbirlər həyata keçirilir. Oktyabrın 22-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Culfa rayonunun Xanəgah kənd tam orta məktəbində "Kitabi-Dədə Qorqud" dastanı və onun Naxçıvanla bağlılığı" mövzusunda nümunəvi dərs aparmışdır. Akademik "Kitabi-Dədə Qorqud" dastanlarına ümummilli lider Heydər Əliyevin verdiyi qiymət, dastanın 1300 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması, bu sahədə imzalanan sərəncamlar və onların əhəmiyyətindən söz açmış, "Kitabi-Dədə Qorqud" dastanlarının tarixi, elmi və bədii əhəmiyyəti, bu dastanın Naxçıvanla bağlılığı haqqında şagirdlərə ətraflı məlumat vermişdir.

**Xəbərlər şöbəsi**

## Müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzindədir

***Şahbuz rayonunun Qızıl Qışlaq kənd tam orta məktəbində rayon Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının iş planına əsasən, "Müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda tədbir keçirilmişdir.***



Məktəbin pedaqoji kollektivi və şagirdlərin iştirak etdikləri tədbiri giriş sözü ilə açan rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova bildirmişdir ki, ulu öndər Heydər Əliyev vətənpərvərlik hisslərini yüksək qiymətləndirərək demişdir: ***"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".***

Qeyd olunmuşdur ki, bu borcu şərəflə, ləyaqətlə yerinə yetirmək üçün hər birimiz vəzifə borcumuzun məsuliyyətini dərk etməli, öhdəmizə düşən işin icrasına səy göstərməliyik. Vətən borcu, vətən sevgisi hər kəsin ürəyində olmalıdır. Çünki babalarımızdan yadigar qalan torpaqlarımızı qorumaq üçün vətəni qəlbən sevmək lazımdır. Gənclərin vətən sevgisi onların gələcək həyat yolunu düzgün istiqamətləndirir. Vətəni sevmək heç də həmişə yalnız ələ silah alıb döyüşə atılmaq deyil, həm də vətəninin əmin-amanlıq şəraitində yaşamasına çalışmaqdır. Bununla yanaşı, hər birimiz milli dəyərlərimizə həmişə hörmətlə yanaşmalı, kimliyimizin təsdiqi olan adət-ənənələrimizə sadiqlik göstərməliyik. Biz fəxr etməliyik ki, bu gün belə gözəl vətənimiz var. Lazım olan anda azərbaycanlı gənclər bu vətən üçün ölümün gözünə dik baxa biliblər, torpaq uğrunda şəhid olublar.

Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Tarverdi Qurbanov, Gənclər və İdman İdarəsinin rəisi Vüqar Muradov çıxış edərək bildirmişlər ki, vətən sevgisi əzəli və əbədi bir qəlb odudur, heç vaxt öz təravətini və gücünü itirmir. Elə buna görə də insan bu sevgiyə köklənəndə dünyanın bütün gücünü qollarına, Günəşin nurunu, işığını isə qəlbinə yığır. Vətəni sevmək, vətən naminə yaşamaq, ona xidmət göstərmək üçün hansısa seçilmiş bir sənət, peşə sahibi olmaq əsas deyil. Əsas odur ki, kimliyindən asılı olmayaraq, hər kəs vətən üçün yaşaya bilsin. Sözün həqiqi mənasında, vətənin daşına, qayasına vurğun olsun. Əsgər döyüş meydanlarında vuruşur, vətən qarşısında borcunu səngərdə yerinə yetirir. Fəhlənin, mühəndisin əməyi ilə məmləkətimiz abadlaşır. Alim əməyi isə vətən üçün Günəş işığı ilə müqayisə edilə bilər. Vətəndaşlıq borcu, ilk növbədə, insanın yaşadığı torpaqla, vətənlə bağlılığıdır. Vətən borcu vətəndaşlıq borcudur. Bu baxımdan ən şərəfli peşə sahibləri olan müəllimlərimizin üzərinə mühüm vəzifələr düşür. Təbii ki, şagirdlərin vətənpərvərlik tərbiyəsi bu vəzifələr sırasında ön sırada dayanır. Dövlətimiz də şagirdlərin vətənpərvərlik tərbiyəsinin düzgün formalaşdırılması və istiqamətləndirilməsi üçün məktəblərimizdə hərtərəfli şərait yaradır.

Sonra şagirdlərin sualları cavablandırılmışdır.

**Şəhla NƏBİYEVA**

*İtmişdir*

Şəfiyev Namiq Şəmil oğlunun adına olan Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 11-də yerləşən "Samir" fotostudiyasının 24 inventar nömrəli texniki pasportu və 0017914 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 794